*Tarix fakültəsi - 105*

**UOT 94(479.24); UOT 94**

**SEVİNC RUİNTƏN**
*Bakı Dövlət Universitetinin dosenti*
**sevinjruintan@bsu.edu.az**

# TÜRK XALQLARI TARİXİ KAFEDRASININ NÜMUNƏSİNDƏ BAKI DÖVLƏT UNİVERSİTETİ TARİX FAKÜLTƏSİNİN GƏNCLƏR SİYASƏTİNƏ BAXIŞ

DOI: https://doi.org/10.36719/2708-065X/106/73-77

*Ey gələcək nəsil, ey gənclik!*
*Sənin öhdəndə böyük bir vəzifə var.*
*Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı.*
*Onu min müşkülatla ucaldaraq dedi ki: - Bir kərə yüksələn bayraq bir daha enməz!*
*Əlbəttə, sən onun bu ümidini qırmayacaq, Azərbaycan türklərinin yanıqlı nəğmələrinə*
*mövzu olmuş, ürəklərinə enmiş bu bayrağı bir daha o bina üzərinə dikəcək,*
*bu yolda ya qazi, ya şəhid olacaqsan...*

M.Ə.Rəsulzadənin gəncliyə xitabı.

*Gənclər siyasəti bütün cəmiyyətlərdə dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Belə ki, gənclər mədəni irsin qorunub saxlanmasında, cəmiyyətlərin fərqliliyinin təşviqində mühüm rol oynayırlar. Və məhz elə bu baxımdan da cəmyyətdə baş verən yenilikləri həyata keçirən əsas qüvvə hesab olunurlar. Azərbaycan dövləti də bu mənada istisna deyil. Dövlət tərəfindən dəstəklənən Azərbaycan gəncləri dünya miqyasında müxtəlif səviyyələrdə təşkilat və qurumlarda təmsil olunurlar. Azərbaycanın qocaman təhsil müəssisəsi olan Bakı Dövlət Universitetində, eləcə də Tarix fakültəsində də gənclər siyasəti daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Hazırki məqalədə Türk xalqları tarixi kafedrasının nümunəsində Tarix fakültəsində həyata keçirilən gənclər siyasətindən bəhs ediləcəkdir.*

*Açar sözlər:* Gənclər siyasəti, Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Türk xalqları tarixi kafedrası.

***Giriş.*** Daim axtarışda olan, yeniliyi sevən qüvvə olan gənclik tarix boyu bütün cəmiyyətlərdə aparıcı qüvvə olmuşdur. Bu baxımdan günümüzdə də gənclər siyasəti bütün dövlətlərin, o cümlədən Azərbaycan dövlətinin siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. 1997-ci ildən fevral ayının 2-si ölkədə Gənclər Günü kimi qeyd olunur. Hazırda ölkəmizdə 200-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir, Azərbaycan gəncləri Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunurlar [3]. 105 illik yubileyini qeyd etdiyimiz Bakı Dövlət Universitetinin 105 yaşlı Tarix fakültəsində də bütün dövrlərdə gənclərlə iş diqqət mərkəzində saxlanılan məsələlərdən olmuşdur. Bu mənada, Tarix fakültəsinin Türk xalqları tarixi kafedrası da tələbə-gənclərlə iş məsələsini özünün fəaliyyət prioritetlərindən hesab etməkdədir.

***Türk xalqları tarixi kafedrasının tarixindən.*** Məlumdur ki, Universitetin fəaliyyətinin ilk illərində, daha dəqiq desək, 1922-ci ildə Tarix fakültəsində fəaliyyət göstərən 8 kafedradan biri də "Türklərin tarixi" kafedrası (bəzi mənbələrdə "Türk-tatar xalqları kafedrası" - [6, s.80]) olmuşdur [4, s.101]. Bu kafedranın yaradılması təsadüfi olmamışdır. 1920-1922-ci illərdə Azərbaycan SSR Xalq maarif

komissarı olmuş Dadaş Bünyadzadə qeyd edirdi ki, *"Universitetin elmi-tədris funksiyaları ildən-ilə genişlənir, dərinləşirdi. 1919-1920-ci tədris ilində universitetin fəaliyyəti tədris işilə məhdudlaşırdısa, 1920-ci ildə Elmi Assosiasiyaların təşkili onun elmi-tədqiqat işinin inkişafına təkan verdi... sonra isə böyük siyasi dəyərə malik vəzifələr irəli sürüldü: türkləşmə və proletarlaşma, sosialist quruculuğunun praktik tapşırıqlarına bilavasitə uyğunlaşmasına yönəldilən fakültələrin məqsədlərinin dəyişdirilməsi, tələbələrin marksist və leninçi dünyagörüşü əsaslarına uyğun sosial-siyasi tərbiyələndirilməsi vəzifəsi və nəhayət, universitetin mədəni inqilab mərkəzinə çevrilməsi məsələsi... Biz həyata keçən və sadalanan məsələlərin hər birində nailiyyətlər əldə edirik..."* [5, s.77-78].

Hazırda Bakı Dövlət Universitetinin "Türk xalqları tarixi" kafedrasının müdiri, tarix elmləri doktoru, professor Əsməd Muxtarova yazır ki, Türklərin tarixi kafedrası mövcudluğu dövründə *"... türkologiya sahəsində tarixi və ədəbi tədqiqatların mərkəzi olmuşdur. Fakültədə yaranan elmi cəmiyyətlərdə türk xalqlarının tarixinə aid tədqiqatlar mühüm yer tuturdu. Lakin sonradan məlum səbəblərə görə həmin kafedra ləğv edilmiş ... repressiya illərində demək olar ki, bütün türkoloqlar repressiya olunmuşdur. Bu səbəbdən də Sovet hakimiyyəti illərində türk xalqlarının tarixinə aid tədqiqatlar başqa mövzuların tərkibində başqa adla aparılmış, şərqşünaslıq, ədəbiyyat və dil baxımından araşdırılmışdır"* [1, s.52].

Və yalnız 1991-ci ildə Azərbaycan xalqı özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra, 1992-ci ildə o dövr hadisələrinin öncüllərindən olan Tarix fakültəsində həyata keçirilən yeniliklərdən biri də məhz Türk xalqları tarixi kafedrasının yaradılması (əslində isə, fəaliyyətinin bərpa edilməsi – S.R.) oldu. Kafedra fəaliyyətinə faktiki olaraq tədris edilməsi nəzərdə tutulan fənlərin proqramlarının, tədris vəsaitlərinin yoxluğu, hətta bu fənləri tədris edəcək ixtisaslı kadrların belə olmadığı şəraitdə başladı. Lakin az bir zaman ərzində kafedra əməkdaşları tərəfindən Azərbaycanda türk xalqlarının tarixinin tədqiqi, təbliği və tədrisi istiqamətində bir sıra mühüm işlər görülmüş, gərgin əməyin nəticəsi olaraq kafedra sözün həqiqi mənasında Respublikada Türk tarixinin tədqiqi və tədrisi mərkəzinə çevrilmişdir [2, s.19].

***Türk xalqları tarixi kafedrasında tələbə-gənclərlə iş.*** Türk xalqları tarixi kafedrasının bütün fəaliyyəti dövründə tədris, elmi-tədqiqat işləri ilə bərabər tələbə-gənclərlə iş məsələsi də kafedranın mühüm fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirilmiş, bu məsələyə xüsusi diqqət yetirilmişdir. Bu deyilənləri təsdiq edəcək sadəcə bir neçə faktı diqqətə çatdırmaq istərdik:

1. XX əsrin 90-cı illərində formalaşma mərhələsini, quruluş dövrünü yaşayan kafedrada 2004-cü ildən "Türk dünyası gənc tədqiqatçılar" dərnəyi də fəaliyyət göstərməkdədir. Dərnək üzvləri müxtəlif tədbir və layihələrin, elmi seminarların keçirilməsində fəal iştirak edirlər *(məsələn, kafedranın bakalavr və magistrant tələbələrinin təqdimatında "Birlikdə daha güclüyük" layihəsi çərçivəsində "Qafqazda mövcud münaqişələr və onlara münasibətdə dünya birliyinin münasibəti", "Din və cəmiyyət", "May təqvimimiz", "Türk savaş sənəti, silahları və Türk ordusu", "Osmanlı ordusu", "Türkiyədə gender məsələsi: İslam dəyərləri və milli adət-ənənə" və bir çox digər müxtəlif mövzularda elmi seminarlar keçirilib)*;





2. Tələbə-gənclərin elmi araşdırmalarına yardım məqsədilə vaxtaşırı dərnək üzvləri, həmçinin maraqlanan digər tələbələr üçün Azərbaycan və ingilis dillərində akademik yazı qaydaları ilə bağlı təlimlər keçirilir *(Azərbaycan dilində təlimlər kafedranın saathesabı müəllimi t.ü.f.d., dosent Səidə Quliyeva; ingilis dilində təlimlər kafedranın saathesabı müəllimi, İngiltərənin SOAS Universitetinin məzunu Cavid Əlisgəndərli tərəfindən keçirilmişdir)*;

3. Tələbə-gənclərin respublika və beynəlxalq səviyyəli elmi konfranslara, simpoziumlara, müsabiqələrə elmi məruzə və layihələrə qatılmasına yardım edilir. Kafedra müəllimlərinin rəhbərlik etdiyi 5 tələbə müxtəlif illərdə və müxtəlif nominasiyalarda ("İlin ən yaxşı alimi", "İlin ən yaxşı tələbəsi", "İlin ən yaxşı araşdırmaçısı") MDB çərçivəsində keçirilən müsabiqələrdə qalib seçilmişlər [7; 8; 9].

4. Tələbə-gənclərin tarixi yerlərə, xarici ölkələrə səfərləri təşkil edilir *(məsələn, dərnək üzvlərinin fakültənin Arxeologiya və Etnoqrafiya kafedrasının müəllimi A.Bayramovun iştirakı ilə Mərdəkan, Ramana və Nardaran qalalarına; Türk xalqları tarixi kafedrasının müdiri Ə.Muxtarovanın, Mənbəşünaslıq, Tarixşünaslıq və tarixin tədrisi metodikası kafedrasının müəllimləri S.Əli qızı və M.Talıbovanın iştirakı ilə Şamaxı rəsədxanasına və digər tarixi yerlərə ekskursiyaları təşkil olunub. Kafedranın dosenti S.Ruintənin iştirakı ilə İngiltərənin London, Türkiyənin İstanbul və Trabzon şəhərlərində yay məktəbi, konfrans və festivallarda iştirak edilib)*;

5. Tələbə-gənclərin elmi tədqiqatlara cəlb edilməsi məqsədilə 2017-ci ildən başlayaraq kafedrada "Türk dünyası gənc tədqiqatçılar dərnəyinin araşdırmaları" adlı jurnal nəşr edilməkdədir [10] və s.

Qeyd edək ki, kafedranın təşəbbüsü və təşkilatçılığı ilə keçirilən tədbirlərdə tələbə-gənclər hər zaman fəal iştirak etmişlər. Onların iştirakı ilə "M.K.Atatürk – 135. Türkiyə Cümhuriyyəti azərbaycanlı gənc tədqiqatçıların araşdırmalarında" mövzusunda Respublika tələbə-gənclər konfransı"; Türk xalqları tarixi kafedrasının 25 illik yubileyinə həsr olunmuş "Azərbaycanda türk xalqları tarixinin tədqiqi və tədrisi məsələləri" mövzusunda Respublika elmi-praktik konfransı; "Tələbələrimizi tanıyaq və tanıdaq" adlı yaradıcılıq müsabiqəsi; Bakı Dövlət Universitetinin və Tarix fakültəsinin 100 illik yubileylərinə həsr olunmuş "Türk dünyası günü" ədəbi-bədii tədbir; Azərbaycan Xalq Cümhuriyyətinin 103-cü ildönümünə həsr edilmiş "103 il + 44 gün", 102-ci ildönümünə həsr edilmiş "Unutmayaq" adlı vebinarlar və bir çox digər tədbirlər keçirilmişdir. Bundan əlavə, BDU-nun üzv olduğu Avrasiya Universitetlər Birliyi (EURAS) üzv Universitetlərin "İnkişaf edən dünyada gənclər və ətraf mühit" mövzusunda I Beynəlxalq Gənclər Festivalında "Müasir Azərbaycan gənclərinin dünyaya baxış açısı" mövzusu ilə iştirak edilmişdir.










Qeyd edək ki, tələbələrin bütün uğurları, onlarla bağlı və onların iştirakı ilə keçirilmiş tədbirlər haqqında məlumatlar mütəmadi olaraq Tarix fakültəsinin rəsmi səhifəsində paylaşılırdı*. Lakin təəssüf

* *http://history.bsu.edu.az/az/news/bduda_elmitdqiqat_ndir_v_nec_aparlmaldr_mvzusunda_seminar_keirilib; http://history.bsu.edu.az/az/news/trk_dnyas_gnc_tdqiqatlar_drnyinin_zv_al_rak_trk_sava_sanatlar_silahlar_ve_trk_ordusu_mvzusunda_tqdimat_keirib;*

ki, hazırda bizdən asılı olmayan səbəblərə görə həmin məlumatları əldə etmək mümkün deyil. Bu səbəbdən, sadaladığımız məsələlər hazırda yalnız kafedranın illik hesabatlarında əksini tapmaqdadır.

***Nəticə***. Bu günlərdə 105 illik yubileyini qeyd etdiyimiz Bakı Dövlət Universitetinin həmyaşıdı Tarix fakültəsində fəaliyyət göstərən Türk xalqları tarixi kafedrası özünün fəaliyyətində gənclərlə iş məsələsini daima diqqət mərkəzində saxlamaqdadır. Bu işlər daha çox kafedranın nəzdində fəaliyyət göstərən Türk dünyası gənc tədqiqatçılar dərnəyinin vasitəsilə, eyni zamanda fakültədə və Universitetdə fəaliyyət göstərən tələbə-gənclər təşkilatlarının tədbirlərində iştirak edən tələbələrə lazımi yardımın edilməsi yolu ilə həyata keçirilir. Ümumilikdə baxıldıqda isə, kafedranın bu istiqamətdəki fəaliyyətinin bütövlükdə Tarix fakültəsində daha geniş və əhatəli şəkildə həyata keçirilən gənclərlə iş siyasətinin sadəcə bir hissəsi olduğu da qeyd edilməlidir.

ƏDƏBİYYAT

1. Əsməd Muxtarova. Tarix fakültəsinin beynəlxalq əlaqələrinin inkişafında Türk xalqları tarixinə dair tədqiqatların rolu / Azərbaycanın ictimai-siyasi həyatında Bakı Dövlət Universitetinin Tarix fakültəsinin yeri və rolu. Bakı Dövlət Universiteti və Tarix fakültəsinin 100 illik yubileylərinə həsr olunmuş Respublika elmi konfransının materialları. 8-9 oktyabr 2019-cu il. Bakı, Füyuzat, 2021, s.52-54. - http://static.bsu.az/w16/konfrans_BDU-Tarix-100%20-%20meqaleler%20toplusu.pdf [10.10.2024].
2. Əsməd Muxtarova. Bakı Dövlət Universiteti "Türk xalqları tarixi" tədrisinin mərkəzidir // Tarix və onun problemləri, №4 2014, s.17-26.
3. Lalə Hüseynova. Gənclər siyasəti dövlətin əsas istiqamətlərindəndir / AR Müdafiə Nazirliyi, 27 yanvar 2018. - https://mod.gov.az/az/pre/21478.html [10.10.2024].
4. Oğuz Kağan Bayrakdar. SSRİ dövründə Azərbaycan tarixşünaslığında Mərkəzi Asiya və türk tarixi ilə bağlı araşdırmaların təhlili / Türk Dünyası Gənc Tədqiqatçılar Dərnəyinin Araşdırmaları, №3 2019, s.99-110. - http://static.bsu.az/w16/TDCTD_Ara%C5%9Fd%C4%B1rmalar%C4%B1_N3_2019.pdf [10.10.2024].
5. Razumovski V.İ., Makovelski A.O. Bakı şəhərində universitetin yaradılması. Bakı, Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014, 112 s. - http://web2.anl.az:81/read/page.php?bibid=505858&pno=40&zoom=2 [10.10.2024].
6. Səidə Quliyeva. SSRİ dövrü və müstəqillik illərində Tarix fakültəsinin strukturunun müqayisəli təhlili / Azərbaycanın ictimai-siyasi həyatında Bakı Dövlət Universitetinin Tarix fakültəsinin yeri və rolu. Bakı Dövlət Universiteti və Tarix fakültəsinin 100 illik yubileylərinə həsr olunmuş Respublika elmi konfransının materialları. 8-9 oktyabr 2019-cu il. Bakı, Füyuzat, 2021, s.77-87. - http://static.bsu.az/w16/konfrans_BDU-Tarix-100%20-%20meqaleler%20toplusu.pdf [10.10.2024].
7. Tarix fakültəsi SABAH qrupu tələbələri beynəlxalq konfransda iştirak ediblər / BDU Tarix fakültəsinin rəsmi saytı, 15 may 2024. - https://history.bdu.info.az/xeberler/tarix-fakultesi-sabah-qrupu-telebeleri-beynelxalq-konfransda-istirak-edibler [10.10.2024].
8. Qazaxıstanın Astana şəhərində keçirilən "MDB-nin ən yaxşı tədqiqatçıları - 2024" müsabiqəsində iştirak ediblər / BDU Tarix fakültəsinin rəsmi saytı, 13 may 2024. - https://history.bdu.info.az/xeberler/qazaxistanin-astana-seherinde-kecirilen-mdb-nin-en-yaxsi-tedqiqatcilari-2024-musabiqesinde-istirak-edibler [10.10.2024].
9. Türk xalqları tarixi kafedrasının magistrantı "2023-cü ilin ən yaxşı gənc alimi" / BDU Tarix fakültəsinin rəsmi saytı, 16 iyun 2023.- https://history.bdu.info.az/xeberler/2023-cu-ilin-en-yaxsi-genc-alimi [10.10.2024].
10. Türk dünyası gənc tədqiqatçılar dərnəyinin araşdırmaları jurnalı. / Tarix fakültəsinin rəsmi saytı. - https://history.bdu.info.az/turk-dunyasi-genc-tedqiqatcilar-derneyi-nin-arasdirmalari [10.10.2024].

---

*http://history.bsu.edu.az/az/news/britaniyada_natiqlik_snti_zr_tcrb_kemi_cavid_lisgndrli_bdunun_tarix_faklsinddnclri_fth_etm_mharti_natiqlik_snti_mvzusunda_tlim_keirilib və s.*

**СЕВИНДЖ РУИНТАН**
*Доцент Бакинского государственного университета*

## ВЗГЛЯД НА МОЛОДЕЖНУЮ ПОЛИТИКУ ИСТОРИЧЕСКОГО ФАКУЛЬТЕТА БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА НА ПРИМЕРЕ КАФЕДРЫ ИСТОРИИ ТЮРКСКИХ НАРОДОВ

Молодёжь играет важную роль в сохранении культурного наследия и проповедовании разнообразия общества. Именно с этой точки зрения она считается главной силой, реализующей инновации, происходящие в обществе. Молодежная политика является одним из важных направлений государственной политики во всех обществах. Азербайджанское государство не является исключением в этом плане. Молодежь Азербайджана, поддерживаемая государством, представлена в различного уровня организациях и учреждениях по всему миру. В Бакинском государственном университете, а также на историческом факультете молодежная политика является одним из вопросов, который всегда находится в центре внимания. В данной статье молодежная политика исторического факультета БГУ будет рассмотрена на примере кафедры истории тюркских народов.

*Ключевые слова*: Молодёжная политика, Бакинский государственный университет, исторический факультет, кафедра истории тюркских народов.

**SEVINJ RUINTAN**
*Associate professor of Baku State University*

## A REVIEW OF THE YOUTH POLICY OF THE FACULTY OF HISTORY OF BAKU STATE UNIVERSITY IN THE EXAMPLE OF THE DEPARTMENT OF HISTORY OF TURKIC PEOPLES

Youth plays an important role in preserving cultural heritage and promoting the diversity of society. It is from this point of view that it is considered the main force implementing the innovations taking place in society. Youth policy is one of the important directions of state policy in all societies. The Azerbaijani state is no exception in this regard. The youth of Azerbaijan, supported by the state, is represented in various organizations and institutions around the world. At Baku State University, as well as at the Faculty of History, youth policy is one of the issues that is always in the spotlight. In this article, the youth policy of the Faculty of History of BSU will be considered on the example of the Department of History of Turkic Peoples.

*Keywords*: Youth policy, Baku State University, Faculty of History, Department of History of Turkic Peoples.

*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*